# Musiqi üzrə test

## Təlimat

İmtahan testinin elektron bukleti qarşınızdadır.

Test iki hissədən ibarətdir: I Dinləmə hissəsi; II Dinlənilən materialdan kənar təqdim olunmuş qapalı və açıq tapşırıqlar.

Dinləmə hissəsi üçün müəyyən vaxt ayrılmışdır. Testin elektron bukletində hər tapşırığın müvafiq təlimatında tapşırığa əməl etmək üçün konkret vaxt göstərilmişdir.

Testin II hissəsinin tapşırıqlarında qalan vaxtı istədiyiniz kimi bölüşdürün.

Testin maksimal xalı – 70-dir.

Testi yerinə yetirmək üçün 4 saat vaxt verilir.

Sizə uğurlar arzulayırıq!

## I  Dinləmə hissəsi

Dinləmə hissəsi on tapşırıqdan ibarətdir.

Tapşırıqlar № 1-6.

Təlimat: İlk altı tapşırığın hər biri bir musiqi fraqmenti və iki sualdan ibarətdir. Hər suala dörd ehtimal olunan cavab verilir. Onlardan yalnız biri düzgündür. Cavabı seçin və cavablar vərəqində müvafiq xananı X işarəsi ilə qeyd edin. Düzgün cavab bir balla qiymətləndirilir, müvafiq olaraq, hər bir tapşırıq - iki balla.

Tapşırığa aid olan musiqi fraqmentini iki dəfə dinləyin. Birinci və ikinci dinləmə arasında 20 saniyə fasilə verilir. Fraqmenti dinləməzdən öncə, tapşırığın suallarını oxumaq üçün sizə 10 saniyə vaxt verilir.

*Tapşırıqlar növbəti səhifələrdə verilmişdir*

(2) **Tapşırıq № 1.**

**Birinci musiqi fraqmentini dinləməzdən öncə tapşırıqla tanış olun:**

**1.1 Mahnı hansı janra aiddir?**

ა) Təqvim;

ბ) Yürüş;

გ) Mərasim;

დ) Əmək.

**1.2 Gürcüstanın hansı guşəsinin mahnısıdır?**

ა) Tuşetinin;

ბ) Raçanın;

გ) Quriyanın;

დ) Pşavinin.

(2) **Tapşırıq № 2.**

**İkinci musiqi fraqmentini dinləməzdən öncə tapşırıqla tanış olun:**

**2.1 Musiqinin müəllifi kimdir?**

ა) Qiorqi Tsabadze;

ბ) Sulxan Tsintsadze;

გ) Bidzina Kvernadze;

დ) Cansuğ Kaxidze.

**2.2 Fraqment hansı kinofilmdən səslənir?**

ა) „Maia Tsğneteli“ („მაია წყნეთელი“);

ბ) „Yalvarış“ („ვედრება“);

გ) „Qəribələr“ („შერეკილები“);

დ) „Şən roman“ („მხიარული რომანი“).

(2) **Tapşırıq № 3.**

**Üçüncü musiqi fraqmentini dinləməzdən öncə tapşırıqla tanış olun:**

**3.1 Fraqmenti hansı heyət ifa edir?**

ა) Simfonik orkestr;

ბ) Kamera-instrumental ansamblı;

გ) Nəfəsli alətlər orkestri;

დ) Simli-kamanlı alətlər orkestri.

**3.2 Musiqinin müəllifi kimdir?**

ა) Artur Onegger;

ბ) İqor Stravinski;

გ) Corc Qerşvin;

დ) Eytor Villa-Lobos.

(2) **Tapşırıq № 4.**

**Dördüncü musiqi fraqmentini dinləməzdən öncə tapşırıqla tanış olun:**

**4.1 Fraqment hansı janra aiddir?**

ა) Oratoriyaya;

ბ) Messaya;

გ) Operaya;

დ) Motetə.

**4.2 Musiqi hansı dövrə aiddir?**

ა) Barokkoya;

ბ) Orta Əsrlərə;

გ) İntibaha;

დ) Klassisizmə.

(2) **Tapşırıq № 5.**

**Beşinci musiqi fraqmentini dinləməzdən öncə tapşırıqla tanış olun:**

**5.1 Fraqment hansı janra aiddir?**

ა) Uvertüraya;

ბ) Süitaya;

გ) Simfoniyaya;

დ) Konsertə.

**5.2 Musiqinin müəllifi kimdir?**

ა) Lüdviq van Bethoven;

ბ) Sergey Raxmaninov;

გ) Olivye Messian;

დ) Edvard Qriq.

(2) **Tapşırıq № 6.**

**Altıncı musiqi fraqmentini dinləməzdən öncə tapşırıqla tanış olun:**

**6.1 Mahnını hansı müğənni ifa edir?**

ა) Jak Brel;

ბ) Bob Marli;

გ) Stiv Vander;

დ) Rey Çarlz.

**6.2 Mahnı hansı janrdadır?**

ა) Folk;

ბ) Blüz;

გ) Şanson;

დ) Rok.

(1) Tapşırıq № 7.

<u>Təlimat</u>. Musiqi səslərinin sırasını dinləyin. Not yazısında verilmiş dörd lad variantından dinlədiyinizə uyğun olanı tapın və cavablar vərəqində müvafiq xananı X işarəsi ilə qeyd edin. Səslərin sırasını iki dəfə dinləyin. Dinləməzdən öncə, not yazısını nəzərdən keçirmək üçün sizə 5 saniyə vaxt verilir:

ა)


ბ)


გ)


დ)


(1) Tapşırıq № 8.

<u>Təlimat</u>. Musiqi frazasını dinləyin; not yazısında verilmiş dörd fərqli variantdan dinlədiyiniz ritmik fiqurasiyanın müvafiq variantını  seçin və cavablar vərəqində müvafiq xananı X işarəsi ilə qeyd edin. Musiqi frazasını iki dəfə dinləyin. Dinləməzdən öncə, not yazısını nəzərdən keçirmək üçün sizə 5 saniyə vaxt verilir:

ა)



ბ)



გ)



დ)



(5) **Tapşırıq № 9.**

***Melodiyalı imla.***

<u>Təlimat</u>. Melodiyanı dinləyin və not sistemində yazın. Melodiya birsəsli, səkkiztaktlı və birtonallıdır. Melodiyanı dinləmək və not sistemində yazmaq üçün sizə 15 dəqiqə vaxt verilir. Melodiyanın audioyazısını beş dəfə dinləyirsiniz. Dinləmələr arasında 2 dəqiqə fasilə var.

İmla – *<u>Mi minor (e moll)</u>* tonallığında verilmişdir.

***<u>Yazdığınız melodiyanı cavablar vərəqində verilmiş not sisteminə qələmlə köçürün.</u>***

(13) Tapşırıq № 10.

*Musiqi əsərinin təhlili.*

Təlimat. Musiqi əsərinin fraqmentini audio və not yazıları əsasında təhlil edin. Fraqmenti üç dəfə dinləyin. Dinləmələr arasında 2 dəqiqə fasilə var. Yazını dinləməzdən əvvəl tapşırığın suallarını nəzərdən keçirmək üçün sizə 30 saniyə vaxt verilir.

*Suallara növbəti iki səhifədə baxın.*

(2) **1. Fraqmentini dinlədiyiniz əsər hansı janra aiddir? Fikrinizi əsaslandırın.**

(3) **2. Təyin edin:**

ა) Fraqmentin başlanğıc tonallığını;

ბ) 1-8-ci taktlarda verilmiş fraqmentin musiqi formasını;

გ) 6-8-ci taktlarda verilən kadans dövriyyəsinə daxil olan akkordların harmonik funksiyalarını.

(3) **3. Verilmiş fraqmenti bədii-emosional nöqteyi-nəzərdən xarakterizə edin; musiqi ifadə vasitələrini təhlil və yazılı təsvir edin; onların hansının (hansı növ melodiya, ritm, temp, registr, tembr, harmoniya, lad-tonallıq, faktura və s.) musiqili-bədii məzmun yaratmaq üçün xüsusilə vacib olduğunu müəyyən edin.**

(2) **4. Dinlənilən əsərin fraqmentinin musiqi xüsusiyyətlərinə əsaslanaraq, onun aid olduğu bəstəkarı və dövrü müəyyənləşdirin.**

(3) **5. Bəstəkarın yaradıcılığını qısaca xarakterizə edin. Dinlədiyiniz fraqmentin aid olduğu əsəri təhlil edin və onun tarixi-mədəni kontekstinə nəzərən mülahizə irəli sürün. Bəstəkarın əsərin aid olduğu janrın inkişafına nə kimi yeniliklər daxil etdiyini müzakirə edin.**

*Dinlənilən musiqi fraqmentinin not yazısına növbəti səhifələrdə baxın.*


1
Andante con moto.
Klar.
Fag.
p dolce
Quart.
Corni.
Ob. u. Fag.
6
mit Fl.
Corni.
Str. Quart.
Voi, che sa - pe - - te,
11
che co - sa e a - mor don - - ne, ve - de - - te, s'io l'ho nel
Klar.
Fag.
Fl. Ob.
3
Klar.
Fag.


16
cor, don - ne, ve - de - te, s'io l'ho nel cor!
Fl.u.Ob.
Quart.
21
Quel - lo ch'io pro - vo, vi - ri - di - rò, è per me nuo - vo,
Ob.
Fag.
Fl. Klar.
27
ca - pir nol so. Sen - to un af - fet - to pien di de - sir,
Ob.
Viol.
H. Bl.


33
ch'o - ra è di - let - to, ch'o - ra è mar - tir; ge - lo, e poi
Fl.
Ob.
38
sen - to l'al - ma av-vam - par, e in un mo - men - to
Klar.
Klar. u. Fag.
43
tor - no a ge - lar; ri - cer - co un be - ne fuo - ri di
H. Bl.
Viol.


48
me, non so chi il tie - ne, non so cos' è; so - spi - ro e
H. Bläs.
F.
Ob.
53
ge-mo sen-za vo-ler, pal-pi-to e tre-mo sen-za sa-per; non tro-vo pa-ce not-te nè
sf p
sf p
58
dì, ma pur mi pia - ce lan - guir co - sì! Voi, che sa -
Viol.


63
pe - te, che co - sa è a - mor, don - ne, ve - de - - te, s'io l'ho nel
Klar. Fag.
3
Fl. u. Ob.
Klar. Fag.
69
cor, don - ne, ve - de - - te, s'io l'ho nel cor,
Fl. u. Ob.
3
Klar.
Fag.
Fl. Ob.
Ob.
74
don - ne, ve - de - te, s'io l'ho nel cor!
tr
Ob.
tr
Fl.

II Hissə

Tapşırıqlar № 11-28.

Təlimat. Hər suala dörd ehtimal edilən cavab verilir. Onlardan yalnız biri düzgündür. Seçdiyiniz cavabı cavablar vərəqinə müvafiq xananı X ilə işarələməklə köçürün. Başqa heç bir işarədən istifadə etməyin (üfüqi və ya şaquli xətlər, dairəyə almaq və s. ), çünki elektron proqram onları qəbul edə bilmir. Əgər cavablar vərəqində işarələdiyiniz cavabı düzəltmək istəyirsinizsə, X-lə işarələdiyiniz xananı bütövlüklə rəngləyin və sonra düzgün cavabın yeni variantını işarələyin (X işarəsini yeni xanada qeyd edin). Düzəliş etdiyiniz cavabın yenidən seçilməsi qeyri-mümkündür. Hər düzgün tapşırığa 1 bal verilir.

(1) **Tapşırıq № 11.**

**Musiqi mövzusunun birinci dəfə bütün səslərdə səsləndirildiyi fuqa hissəsi necə adlanır?**

ა) Repriza;

ბ) Ekspozisiya;

გ) Giriş;

დ) Prelüdiya.

(1) **Tapşırıq № 12.**

**Arnold Şönberqin „Aylı Pyero“ melodramının poetik mənbəyinin müəllifi kimdir?**

ა) Henrix Heyne;

ბ) Vilhelm Müller;

გ) Alber Jiro;

დ) Stefan Malarme.

(1) **Tapşırıq № 13.**

**Polifonik formanın hansı tərifi musiqi qanununa uyğundur?**

ა) Səslərin sıra ilə girişində hər növbəti səs tərəfindən birinci səsin melodiyasının dəqiq təkrar edilməsi;

ბ) Bir neçə melodik xəttin eyni vaxtda səslənməsi və müstəqil inkişafı;

გ) Dua mətnləri üzərində qurulmuş, çoxsəsli vokal ifadələrin iki xor tərəfindən növbəli ifası;

დ) Bir musiqi mövzusunun hər birində mövzunun fərqli inkişafı ilə müxtəlif səslərdə təkrarlanması.

(1) **Tapşırıq № 14.**

**Emosiyanı ifadə edən musiqi termini hansıdır?**

ა) Decrescendo;

ბ) Accelerando;

გ) Appassionato;

დ) Prestissimo.

(1) **Tapşırıq № 15.**

**Klaudio Monteverdinin yaradıcılığı ilə bağlı hansı xüsusiyyət doğru *deyil?***

ა) Opera janrında, dramatik musiqi təsvirinin gücləndirilməsinin təzahürü „Lamento“ ariyasıdır;

ბ) Bəstəkar opera librettoları üçün nəinki mifoloji, eləcə də tarixi mövzulardan istifadə edir;

გ) Monteverdi musiqinin emosional rəngarəngliyini ötürmək üçün orkestrdə alətlərin sayını artırır;

დ) Monteverdinin yaradıcılığı yalnız dünyəvi məzmunlu musiqi janrlarını əhatə edir.

(1) **Tapşırıq № 16.**

**Hansı bəstəkar müstəqil pyeslər kimi, prelüdiyalar silsiləsini yaradıb?**

ა) Frederik Şopen;

ბ) İohanes Brams;

გ) Ferenz List;

დ) Edvard Qriq.

(1) **Tapşırıq № 17.**

**Hansı xüsusiyyət Coakino Rossinin „Sevilyalı bərbər“ operasına *uyğun gəlmir*?**

ა) Opera bədii obrazlarının inkişafında leytmotiv sistem vacibdir;

ბ) Operanın nömrəli strukturunun hissəsi secco reçitativlər formasıdır;

გ) Opera buffa janrına aiddir və iki aktdan ibarətdir;

დ) Uvertüra operaya musiqili mövzular ilə bağlı deyil.

(1) **Tapşırıq № 18.**

**Minimalizm cərəyanını xarakterizə edir:**

ა) Kompozisiyalar alətlərin solo partiyalarının üstünlük təşkil etdiyi kamera ansamblları üçün yazılır;

ბ) Miniatür janrı prioritet qazanır, opera və başqa böyük formalı əsərlər isə yaranmır;

გ) Minimalist formalar on iki təkrarolunmaz səslər sırasından ("seriyasından") istifadə edilərək yazılır;

დ) Musiqi inkişafının əsası patternlər, cüzi dəyişikliklə təkrarlanan motivlərdir.

(1) **Tapşırıq № 19.**

**Not yazısında hansı növ səslərin düzümü verilib?**

ა) Homofonik;

ბ) Polifonik;

გ) Monodik;

დ) Akkord.



(1) **Tapşırıq № 20.**

**Musiqi əsərində başqa əsərlərdən götürülən fraqmentlərin müəyyən formada birləşdirilməsi və yerləşdirilməsi necə adlanır?**

ა) Stilizasiya;

ბ) Kollaj;

გ) İmprovizasiya;

დ) İmitasiya.

(1) **Tapşırıq № 21.**

**Davit Toradzenin „Qorda“ baletinin əsasında hansı yazıçının ədəbi əsəri dayanır?**

ა) Akaki Tseretelinin;

ბ) Eqnate Ninoşvilinin;

გ) Daniel Çonkadzenin;

დ) Niko Lortkipanidzenin.

(1) **Tapşırıq № 22.**

**Barokko dövründə əsərlər hansı musiqi forması ilə *yazılmırdı?***

ა) Rondo forması ilə;

ბ) Sonata forması ilə;

გ) Variasiya forması ilə;

დ) Üçhissəli forma ilə.

(1) **Tapşırıq № 23.**

**Not yazısında verilmiş Frederik Şopenin musiqi fraqmenti hansı rəqs janrındadır?**

ა) Vals;

ბ) Bolero;

გ) Poloneza;

დ) Mazurka.



(1) **Tapşırıq № 24.**

**İntibah dövrünün madriqalı hansı tipdə əsərdir?**

ა) Dini məzmunlu monodik oxuma forması;

ბ) Dünyəvi musiqi-poetik janrda, çoxsəsli mahnı;

გ) Simli-kamanlı alətlər ansamblı, klavesinin müşayiəti ilə;

დ) Qarışıq dəstə üçün ibadət mətnləri üzrə yaradılmış əsər.

(1) **Tapşırıq № 25.**

**Skripka konsert janrının yaradılması hansı dövrlə bağlıdır?**

ა) İntibah;

ბ) Klassisizm;

გ) Barokko;

დ) Orta Əsrlər.

(1) **Tapşırıq № 26.**

**Qeorq Fridrix Hendel həyatının son dövrünü hansı ölkədə yaşayıb?**

ა) İtaliyada;

ბ) Fransada;

გ) Böyük Britaniyada;

დ) Almaniyada.

(1) **Tapşırıq № 27.**

**Baş qəhrəmanı Serpina olan operanın bəstəkarı kimdir?**

ა) Qeorq Fridrix Hendel;

ბ) Yakopo Peri;

გ) Antonio Vivaldi;

დ) Covanni Batista Perqolezi.

(1) **Tapşırıq № 28.**

**Hansı qruplaşma düzgün** ***<u>deyil?</u>***

ა) Qadın opera səsləridir: soprano, mezzo soprano, kontralto;

ბ) Zərb alətləridir: litavralar, tam-tam, üçbucaq;

გ) Emosiya bildirən terminlərdir: agitato, dolce, portamento;

დ) İfa sürətinin müəyyənləşdiricisidir: allegro, moderato, vivace.

Tapşırıqlar № 29 - 32.

*Notdan qurma*

Təlimat. *Do* notundan intervalı, akkordları və ladı qurun. Bunları cavab vərəqində verilən not sistemində yazın.

(1) 29. Kiçik septima;

(1) 30. Major sekstakkord;

(1) 31. Kiçildilmiş septakkord;

(1) 32. Melodik minor.

Tapşırıqlar № 33 - 35.

*Uyğunluğun müəyyən edilməsi*

<u>Təlimat</u>. Tapşırıqda sadalananların iki sütunu verilmişdir. Onlar arasındakı uyğunluğu müəyyən edin. Sol sütunun hər bir göstəricisi (1, 2, 3) sağdakı sütununun <u>***yalnız bir***</u> göstəricisinə (ა, ბ, გ, დ, ე) uyğundur. Cavab vərəqində verilmiş cədvəldə seçilmiş hər bir uyğunluğu X işarəsi ilə qeyd edin. Hər düzgün cavab 1 balla qiymətləndirilir.

(3) **Tapşırıq № 33.**

**Xalq mahnıları və Gürcüstanın bölgələri arasında uyğunluğu müəyyən edin:**

1. „Çakrulo“
2. „Miranqula“
3. „Çari Rama“

ა) İmereti

ბ) Kaxeti

გ) Svaneti

დ) Pşavi

ე) Tuşeti

(3) **Tapşırıq № 34.**

**Operalar və onların ədəbi mənbələrinin müəllifləri arasında uyğunluğu müəyyən edin:**

1. „Riqoletto“
2. „Turandot“
3. „Fiqaronun toyu“

ა) Karlo Qotsi

ბ) Viktor Hüqo

გ) Uilyam Şekspir

დ) Fridrix Şiller

ე) Pyer Bomarşe

(3) **Tapşırıq № 35.**

**İtalyan musiqi terminləri və onların tərcümələri arasında uyğunluğu müəyyən edin:**

1. Mesto
2. Leggiero
3. Giocoso

ა) Ahəngdar

ბ) Şən

გ) Qəmli

დ) Təkəbbürlü

ე) Yüngül

Tapşırıqlar № 36–40.

*"Düzgündür - səhvdir"*

Təlimat. Verilən müddəanın düzgün, yaxud səhv olduğunu müəyyən edin. Müddəanı düzgün hesab edirsinizsə, müvafiq xananı X işarəsi ilə qeyd edin; belə hallarda sizdən şərh tələb edilmir. Əgər müddəanı səhv hesab edirsinizsə, müvafiq xananı X işarəsi ilə qeyd edin və ayrılmış sahədə düzgün izahı yazın.

Müddəa səhvdirsə, verilmiş izaha düzgün termini/sözü uyğunlaşdırın və yaxud verilmiş termini/sözü düzgün izah edin. Nəzərə alın ki, verilmiş izahın təsdiq halı inkar halı ilə və əksinə dəyişdirildikdə cavab qəbul olunmayacaqdır. Hər tapşırıq 1 balla qiymətləndirilir.

(1) **Tapşırıq № 36.**

Musiqi mövzusunun şəkli dəyişdirilmiş təkrarına *variasiyalı forma* deyilir.

(1) **Tapşırıq № 37.**

Musiqi səslərinin ahəngdar qarışığına *dissonans* deyilir.

(1) **Tapşırıq № 38.**

*Musiqi dinamikası* ladın diatonik səs hündürlüyünün xromatik səs ilə, yarım və ya tam tonla dəyişməsini bildirir.

(1) **Tapşırıq № 39.**

„*Oisa*“ İmereti xalq mahnısıdır.

(1) **Tapşırıq № 40.**

Barokko dövrünün polifonik formalarından biri *klaster* adlanır.

Tapşırıqlar № 41 – 42.

*Xronologiyanın müəyyən edilməsi*

Təlimat. Verilənləri ən qədimdən ən yeniyə qədər xronoloji ardıcıllıqla düzün. Cavablar vərəqindəki cədvəldə xronoloji ardıcıllıq rəqəmlərlə 1-dən 4-də qədər qeyd edilmişdir. Cavablar vərəqində verilmiş cədvəldə seçilmiş rəqəm boyunca verilən xanada əlifbanın müvafiq hərfləri ilə (ა, ბ, გ, დ) düzgün cavabları yazın. Hər tapşırıq 1 balla qiymətləndirilir.

(1) **Tapşırıq № 41.**

**Bəstəkarların fəaliyyət dövrlərinə əsasən, bəndləri xronoloji ardıcıllıqla sıralayın:**

ა) Andriya Balançivadze;

ბ) Niko Sulxanişvili;

გ) Sulxan Tsintsadze;

დ) Mixeil Şuğliaşvili.

(1) **Tapşırıq № 42.**

**İnstrumental süitaların yaradılma dövrlərinə əsasən, bəndləri xronoloji ardıcıllıqla sıralayın:**

ა) „Gecə Qasparı“;

ბ) „Şəhrizadə“;

გ) „Su musiqisi“;

დ) „Karnaval“.